**TƏRKİBİ:** *Təsiredici maddələr:* 1 tabletin tərkibində

yemişanın sulu-spirtli çıxarışının quru ekstraktı 50 mq

ballı nanənin sulu-spirtli çıxarışının quru ekstraktı 45 mq

kalsium-laktat pentahidrat 50 mq

maqnezium-tiosulfat 10 mq.

*Köməkçi maddələr:*
Polividon
mikrokristallik sellüloza
susuz kolloidal silisium 4-oksid
qarğıdalı nişastası
talk
maqnezium-stearat
saxaroza
jelatin
Ərəbistan kitrəsi
karnaub mumu
rəngləyici: S narıncı-sarı (E 110).
*Örtük:* şellak, asetilləşmiş monoqliseridlər, polividon.

**TƏSVİRİ:** Girdə, iki tərəfi qabarıq, narıncı rəngli örtüklü tabletlərdir.

**FARMAKOTERAPEVTİK QRUPU:** Sedativ təsirli, tərkibində minerallar olan fitopreparat.

**FARMAKOLOJİ XÜSUSİYYƏTLƏRİ:**Vaqostabil dərman bitkilərinin ekstraktlarından və minerallar kompleksindən ibarət kombinə-olunmuş preparatdır.Yemişan ürək fəaliyyətini yaxşılaşdırır, qan damarları və kapillyarların divarını möhkəmləndirir, arterial təzyiqin normallaşmasına şərait yaradır. Ballı nanə sedativ, hipotenziv, spazmolitik və qusmaəleyhinə təsir göstərir. Kalsium ürək fəaliyyətini normallaşdırır, sinir impulslarının ötürülməsində, sümük toxumasının formalaşmasında və qanın laxtalanma prosesində iştirak edir.Maqnezium sinir impulslarının ötürülməsində iştirak edərək sinir sisteminin normal fəaliyyətini təmin edir.

**İSTİFADƏSİNƏ GÖSTƏRİŞLƏR:** Əsəbilik, həyəcan, yorğunluq, fikir dağınıqlığı ilə müşayiət olunan yüngül formalı nevrasteniyalar.Yüngül formalı yuxu pozğunluqları.Klimakterik sindrom. Mədə-bağırsaq traktının funksional xəstəlikləri.Neyrosirkulyator distoniya.

**ƏKS GÖSTƏRİŞLƏR:** Preparatın komponentlərinə qarşı yüksək həssaslıq.

**HAMİLƏLİK VƏ LAKTASİYA DÖVRÜNDƏ İSTİFADƏSİ:**Vaqostabil hamiləlik və laktasiya dövründə həkim nəzarəti altında qəbul edilə bilər.

**ƏLAVƏ TƏSİRLƏRİ:** Nadir hallarda preparata qarşı yüksək həssaslıq halları ola bilər.

**İSTİFADƏ QAYDASI VƏ DOZASI:**

*Böyüklərə:*

Gərginlik, narahatlıq və əsəbilik hallarında - gündə 1-3 dəfə yeməkdən əvvəl 2 tablet, yuxu pozğunluqlarında - 2 tablet nahar vaxtı və 2 tablet yuxudan əvvəl daxilə qəbul edilir.

*Uşaqlara:*
Yuxu pozğunluğunda - 1 tablet nahar vaxtı və 1 tablet yuxudan əvvəl daxilə qəbul edilir.

**SAXLAMA ŞƏRAİTİ:** Preparat quru, uşaqların əli çatmayan yerdə saxlanılmalıdır.

**BURAXILIŞ FORMASI:**40 örtüklü tablet, flakonlarda. 1 flakon içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır.

**YARARLILIQ MÜDDƏTİ:** Yararlılıq müddəti qablaşdırıldığı qutunun üzərində göstərilmişdir.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**APTEKDƏN BURAXILMA ŞƏRTİ:** Reseptsiz buraxılır.

**İSTEHSALÇI:**«Laboratoires LEURQUIN MEDIOLANUM S.A.» FRANCE